UOT 159.9

**Solmaz Qüdrət qızı Həsənli**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-5931-482X*
*E-mail: solmazhasanli@hotmail.com*
https://doi.org/10.69682/arti.2025.92(1).222-225

# SOSİALLAŞMA ANLAYIŞI VƏ SOSİALLAŞMANIN MAHİYYƏTİ

**Солмаз Гудрат гызы Гасанли**
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике,*

# ПОНЯТИЕ СОЦИАЛИЗАЦИИ И СУЩНОСТЬ СОЦИАЛИЗАЦИИ

**Solmaz Gudrat Hasanly**
*associate professor at the*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# THE CONCEPT OF SOCİALİZATİON AND THE ESSENCE OF SOCİALİZATİON

**Xülasə.** Günümüzdə sürətli sosial dinamizm insanın sahib olduğu toplumda özünütəsdiqini çətinləşdirir. Nəticədə insan sosial yalnızlığa sürüklənir, sahib olduğu topluma yabançılaşır və sosiallaşma prosesində uğursuzluğa düçar olur. Məqalədə müasir dövrdə sosiallaşma prosesinin insan psixologiyasına təsiri baxımından mahiyyəti və xüsusiyyətləri təhlil olunmuşdur.
***Açar sözlər:*** *sosiallaşma, sosial inkişaf, sosial normalar, uğurlu sosiallaşma, uğursuz sosiallaşma*

**Аннотация.** Сегодня стремительный социальный динамизм мешает человеку самоутвердиться в обществе, к которому он принадлежит. В результате человек тянется к социальной изоляции, отчуждается от общества, которым он владеет, и терпит неудачу в процессе социализации. В статье проанализированы природа и особенности процесса социализации в современное время с точки зрения его влияния на психологию человека.
***Ключевые слова:*** *социализация, социальное развитие, социальные нормы, успешная социализация, неудачная социализация*

**Abstract.** Today, rapid social dynamism makes it difficult for a person to assert himself in the society he belongs to. As a result, a person is drawn into social isolation, becomes alienated from the society he belongs to, and fails in the socialization process. The article analyzes the essence and characteristics of the socialization process in modern times in terms of its impact on human psychology.
***Keywords:*** *socialization, social development, social norms, successful socialization, unsuccessful socialization*

Sosial təsir bu təsirə qoşulanların davranışını dəyişdirmək məqsədi daşıyan bir prosesdir. Uşaq sosial təsir yolu ilə qrup mədəniyyətini qazanır. İnsanlar sosial təsir nəticəsində içində olduqları topluma uyğunlaşırlar. İnsanın sosiallaşması çox çətin bir prosesdir. O, ətrafında baş verən və hər gün rastlaşdığı saysız hadisələrin, insanların, ətraf mühitdəki müxtəlif dəyişikliklərin və bu kimi hadisələrin təsirindədir. Bu hadisələrin qarışıq təsiri nəticəsində insan bir şəxsiyyət kimi formalaşır, sosiallaşır.

"Sosiallaşma" termini ilk dəfə amerikalı sosioloq Franklin Henry Giddingsin 1887-ci ildə nəşr olunan "Sosiallaşma nəzəriyyəsi" əsərində istifadə olunmuşdur. Giddingsə görə, sosiallaşma fərdin sosial təbiətinin və ya xarakterinin in-

kişafı, insanın sosial həyata hazırlanmasıdır. Termin kimi sosiallaşma anlayışı amerikalı sosioloq tərəfindən ilk dəfə istifadə edilməsinə baxmayaraq, toplumla qarşılıqlı əlaqə prosesində fərdin şəxsiyyətinin formalaşması ilə bağlı fikirləri 19-20-ci əsrlərin əvvəllərində xüsusilə Z. Freyd, J. Piaje, E. Durkheym və başqa müəlliflər öz əsərlərində açıqlamağa çalışmışlar. E. Durkheyim pedaqoji prosesin sosiallaşdırma funksiyasını "yaşlı nəslin böyüyən nəsli gələcək sosial həyata hazırlaması, psixoloji, intellektual və əxlaqi baxımdan yetişdirməsi" olaraq açıqlamışdır. O, pedaqoji prosesi "metodlu sosiallaşma", toplum içində məqsədsiz, plansız, kortəbii şəkildə göstərilən təsirləri isə "metodsuz sosiallaşma" adlandırmışdır.

"Şəxsiyyətin sosiallaşması mürəkkəb, ziddiyyətli və çoxşaxəli bir prosesdir. Onun ana xətti, ilk növbədə, insan münasibətləri ilə bağlıdır. Uşaq da bir şəxsiyyət kimi elə bu insani münasibətlərin bənzərsiz axarında formalaşır. İnsan münasibətlərinin mənimsənilməsi şəxsiyyətin sosiallaşmasının başlıca problemlərindən biri kimi meydana çıxır" (3, 84 s.)

Heç bir uşaq sosial və ya anti-sosial olaraq dünyaya gəlmir. Bununla bərabər insanlarla birlikdə yaşama tələbatı həyatın ilk ilində formalaşır. Birgə yaşama ehtiyacının eyni zamanda heyvanların böyük bir hissəsinin ortaq xüsusiyyəti olmasından fərqli olaraq, sosial davranış insan övladına xas bir xüsusiyyətdir. İlk sosial davranış körpənin insanlarla əşyaları bir-birindən ayırmağa başladığı zaman meydana çıxır. Körpə həyatının üçüncü ayından başlayaraq insan və əşyalara fərqli reaksiyalar göstərir. Onun ilk sosial reaksiyaları valideynləri və ona yaxın digər ailə üzvlərinə yönəlir.

Bir öyrənmə prosesi olan sosiallaşma, insanın toplum içindəki norma və dəyərlərə uyğun davranış formalarını qəbul etməsi və mənim-səməsi deməkdir. Digər insanları anlamaq və onlara uyğunlaşmaq sosiallaşmanın öndə gələn ölçüsüdür.

Bir uşağın sosiallaşması üçün üç önəmli şərt mövcuddur.

1. Sosiallaşma üçün hər hansı bir toplumun varlığı lazımdır.
2. Uşağın lazımi səviyyədə psixoloji xüsusiyyətlərə sahib olması gərəklidir.
3. Uşağın digər insanlarla sosial münasibət qurmaq ehtiyacı hiss etməsi lazımdır.

Sosiallaşma prosesi iki mərhələdə həyata keçir. Bunlardan birincisi ailədən başlayan və məktəbə qədər olan dövrü əhatə edən ilkin sosiallaşma prosesidir. Digəri isə məktəbdən başlayan və insanın həyatının sonuna qədər davam edən ikinci sosiallaşma mərhələsidir. Bu iki mərhələ bir-birindən onunla fərqlənir ki, birinci sosiallaşma mərhələsi insanın öz ailəsi və yaxınlarının formalaşdırdığı qapalı mühit xarakteri daşıyır. İkinci sosiallaşma mərhələsində isə insanı daha böyük bir sosial mühit əhatə edir və insan bu prosesdə topumun dəyərlərinin, normalarının daşıyıcısına çevrilir.

Sosiallaşmanın təməlində insanın sosial inkişafı dayanır. Sosial inkişaf sosial qıcıqlandırıcılara, xüsusən də insanın daxil olduğu qrupun təsir və məcburediciliyinə qarşı həssaslıq hissini inkişaf etdirməsi, qrupda və ya geniş mənada təmsil etdiyi toplumda başqaları ilə normal ünsiyyət qurması, toplumun digər üzvləri kimi davranması, qadın-kişi rollarını mənimsəməsi və sosial məsuliyyət hissi qazanmasıdır. Toplumun tələb etdiyi dəyər və normalara uyğunluq göstərməyə əsaslanan sosial inkişaf, geniş mənada insanın doğulmasıyla başlayan və ölümünə qədər davam edən bir mərhələni, dar mənada isə gündəlik sosial davranış nümunələrini əhatə edir.

İnsan yaşadığı toplumda həm hörmət və seçkinlik qazanmağa, həm öz yerini müəyyənləşdirməyə, həm də özünütəsdiqə ehtiyac hiss edir. Sosiallaşma geniş ölçüdə bu ehtiyacın təmin olunmasından asılıdır. Sosiallaşmanın ölçüsü insanın çevrəsindəki insanlarla münasibət və ünsiyyəti, daxil olduğu qrup içindəki fəaliyyətlərdə aktiv iştirakı, toplum üçün önəmli olan davranış normalarını mənimsəməsi ilə müəyyənləşdirilir. Bütün bu keyfiyyətlər müəyyən zaman müddətində meydana gəlir.

Mütəxəssislər insanın sosiallaşması ilə bağlı üç xüsusiyyətə diqqət çəkirlər:

- İnsan sosial davranışı toplumla qarşılıqlı təsir nəticəsində öyrənir.
- İnsanın sosiallaşma baxımından nə öyrənəcəyini içində yaşadığı toplum müəyyənləşdirir.
- İnsanın sosiallaşması sosial sistemə aktiv və uğurlu bir şəkildə qoşulması ilə tamamlanır.

Təbiidir ki, sosiallaşma prosesi ümumi xüsusiyyətlərə sahib olsa da, hər bir toplumun özünəməxsus xüsusiyyətlərinin varlığı səbəbindən insanların sosiallaşması prosesində bir toplumda

digərlərinə görə fərqli cəhətlərin üzə çıxmasına səbəb olur. Odur ki, sosiallaşma prosesinin toplumun milli dəyərləri, həmin toplumda qəbul edilən davranış normaları baxımından araşdırılmasına ehtiyac vardır. Eyni zamanda daim göz önündə tutmaq lazımdır ki, durmadan dəyişən dünyada sosiallaşmaya təsir edən amillər, onların xarakter və funksiyaları da daim dəyişməkdədir. Elə buna görə də düşünürük ki, problem hər bir cəmiyyət üçün olduğu qədər, hər bir tarixi dövr üçün də öz aktuallığını saxlayır və bu məsələyə mövcud tarixi kontekstdə baxmağı zəruri edir.

Ümumiyyətlə, bu sahədə aparılan araşdırmaların çoxalmasının önəmli bir səbəbi texnologiyanın inkişafı ilə bağlı olaraq insanlar, mədəniyyətlər və toplumlar arasında qarşılıqlı təsirin artması nəticəsində dünyanın kiçilməsi, qloballaşma və bunların nəticəsində yeni dünyada yaşayan insanların sosiallaşma problemlərinin çoxalmasıdır. Qloballaşma prosesində insanların fərqli mədəniyyət və sosial dəyərlərlə üz-üzə qalmaları, onların sahibi olduqları mədəni-mənəvi dəyərlərə yabançılaşması və təzadlı bir sosial-psixoloji həyata sürüklənmələri ilə nəticələnir.

Son zamanlarda insanın içində olduğu topluma uyğunlaşması və sosiallaşması prosesində ortaya çıxan subyektiv və obyektiv psixoloji problem və çətinliklərin səbəblərini araşdırmaq, bu problemlərin həlli yollarını ortaya qoymaq və şəxsiyyətin uğurlu sosiallaşmasını təmin etmək məqsədi ilə bir çox ölkələrdə müxtəlif elmi araşdırmalar aparılır. Çünki artıq hər bir toplumda baş verən sosial baxımdan sürətli dəyişmələr, insanların bu dəyişmələrə ayaq uydurmalarını tələb edir. Bu dəyişən obyektin subyektə təsiri onu da özünə bənzətmə istəyi sürətli dəyişmə kontekstində təbiidir ki, subyekt olan insanın bir sıra psixoloji problemlərlə qarşı-qarşıya qalmasına səbəb olur. Ona görə də çağdaş insan get-gedə daha çox sosial-psixoloji problemlər məngənəsində yaşamaq məcburiyyətində qalır.

Geniş mənada sosiallaşma uşağın yaşadığı topluma uyğunlaşması deməkdir. Bu prosesə eyni zamanda topluma hazırlanma da deyilir. Çünki uşaq bu prosesdə hər hansı bir toplumla, dar mənada isə hər hansı bir qrupla bütünləşir. Böyüməkdə olan uşaq ətrafındakı insanların təsiri ilə onların davranışlarına oxşar davranışları daha da inkişaf etdirir. Bunun nəticəsində toplumun üzvü olan, bir-birindən fərqli psixoloji xüsusiyyətləri olmasına baxmayaraq bir-birinə oxşar dəyərlərə sahib insan qrupları yaranır.

Sosiallaşmaya iki yanaşma mövcuddur. Birinci yanaşmanın tərəfdarları sosiallaşma prosesində insanın passiv mövqeyini təsdiqləyir və güman edir ki, sosiallaşma topluma uyğunlaşma prosesidir. Bu yanaşmanı ***subyekt-obyekt*** yanaşması adlandırmaq olar (toplum təsir predmeti, insan isə onun obyekti). Obyektiv baxımdan sosiallaşma dedikdə isə toplumun insan üzərindəki təsiri nəzərdə tutulur. Belə ki, toplum sahib olduğu dəyərləri, düşüncə tərzini, davranış normalarını onun üzvü olacaq insanlara aşıladaraq onlara sosial rolu, sosial normaları mənimsədir. Bu yanaşmanın tərəfdarları fransız alimi Emil Dürkheym və amerikalı alim Talkott Parsonsdur.

**İkinci** yanaşmanın tərəfdarları insanın sosiallaşma prosesində fəal iştirak etdiyini və sadəcə topluma uyğunlaşmadığını, həm də onun həyat şəraitinə və özünə təsir göstərdiyi fikrini irəli sürürlər. Bu yanaşma ***subyekt-subyekt*** yanaşması olaraq təyin edilir. Bu yanaşmanın öncülləri amerikalılar Çarlz Kuli və Corc Herbert Middır. Subyekt-subyekt yanaşmasına əsasən, sosiallaşma bütün yaş mərhələlərində insanın kortəbii, nisbətən yönəldilmiş və məqsədyönlü şəkildə yaradılan sosial mühit ilə qarşılıqlı əlaqədə meydana gələn mədəniyyətin mənimsənilməsi prosesində insanın inkişafı və özünü dəyişdirməsi kimi şərh edilir. Yəni subyektiv baxımdan sosiallaşma insanın içində olduğu sosial mühitə uyğunlaşmasıdır. İnsan toplumun hər kəs tərəfindən qəbul edilmiş düşüncə və davranış normalarını mənimsəyir. İnsan bu dəyərləri, normaları mənimsəyib onları özününküləşdirir, bu dəyərlərə inteqrasiya olunur. Yuxarıda qeyd edilən hər iki yönlü sosiallaşmada insan mənlik şüuruna sahib olur, şəxsiyyətə çevrilir.

Ümumi olaraq sosiallaşma prosesinin əsasən aşağıdakı xüsusiyyətləri vardır:

1. Sosiallaşma prosesi hər zaman müəyyən bir konkret toplum üçün keçərlidir. Yəni insan tərkibində olmadığı digər toplumlara uyğun sosiallaşması mümkün deyildir. Mövcud toplumların mədəni-mənəvi dəyərlərindəki fərqliliklər baxımından insan sadəcə yaşadığı cəmiyyətə uyğunlaşır, onun dəyərlərini mənimsəyir və həmin cəmiyyət tərəfindən sosiallaşdırılır.
2. Sosiallaşma hər hansı bir insanın doğulduğu andan etibarən başlayan, uşaqlıq, yeniyetməlik dövründə sürətlə cərəyan edən və əsa-

sən son gənclik dövründə müstəqillik xüsusiyyətinin qazanılması ilə nəticələnən bir prosesdir.

3. Sosiallaşma prosesi insanın fərdi-psixoloji xüsusiyyətləri ilə maraqlanmır. Bu prosesdə insanın özünəməxsus xüsusiyyətləri toplum dəyərlərinə uyğunlaşdırılır.

Sosiallaşmanın iki növü vardır: uğurlu sosiallaşma və uğursuz sosiallaşma.

Uğurlu sosiallaşma eyni zamanda sosial nəzarətin bir vasitəsidir. Sosiallaşma prosesində rəğbətləndirmə və cəzalandırma mexanizmləri iştirak edir. Yəni gənc nəsil sosial normalara əməl etmənin rəğbətləndirmə, onları yerinə yetirməmənin isə cəzalandırma ilə nəticələnəcəyini öyrənir. Sosiallaşma sadəcə insan davranışlarına nəzarətin təmin edilməsi mexanizmi deyildir. Sosiallaşma eyni zamanda gənc nəslin müsbət yöndə inkişafını təmin edir, motivləri hərəkətə gətirir, insanda müsbət yöndə arzu, istək yaradır, onu toplum tərəfindən qəbul edilə bilən davranışlara yönləndirir. Beləliklə, uğurlu sosiallaşma həm formalaşdırıcı, həm də yaradıcı bir prosesdir. Yəni ilk əvvəl uğurlu sosiallaşma uşağı toplumun istədiyi yöndə formalaşdırır, daha sonra isə ondan topluma xeyir verən, onun mənafeyini qoruyan bir şəxsiyyət yaradır.

Uğursuz sosiallaşma mənfi davranışların qazanılmasına səbəb olur. Bəzən uşaqlar onları əhatə edən mikro və ya makro mühitin mənfi təsirlərinə məruz qalır və toplum tərəfindən qəbul edilməyən davranışlara yiyələnirlər. Bu səbəblə də hər zaman yaşadıqları toplumun norma və qanunları ilə təzad təşkil edən davranışlar göstərirlər.

Sosiallaşmanın bir proses olduğu və bunun hətta körpəlik yaş dövründən başlayaraq gənclik yaşının sonu və orta yaş dövrünün başlanğıcında uğurlu və ya uğursuz olaraq nəticələndiyini göz önündə tutsaq qeyd edə bilərik ki, bu dövrdə insanın psixoloji bir rəhbərliyə, yardıma və məsləhətə ehtiyacı vardır. Təbii ki, bu prosesdə insanın fərdi psixoloji xüsusiyyətlərinə diqqət yetirməmək mümkün deyil və düşünürük ki, bir şəxsiyyətin formalaşmasında sosial amillər nə qədər önəmli rol oynayırsa, psixoloji amillər də bir o qədər önəmə sahibdir.

**Problemin aktuallığı.** Günümüzdə sürətli iqtisadi-sosial dəyişmələr, texnologiyanın, sənayenin inkişafı, bu dəyişmələr və inkişaf nəticəsində insanlar arasında səmimi münasibətin getdikcə azalması, real münasibətlərin yerini texnoloji vasitələrin alması və nəticədə yalnız, özünü sosial mühitdən təcrid edən bir nəslin meydana gəlməsi baxımından sosiallaşma prosesi araşdırılması önəmli olan problemlərdəndir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, məqalədə sosiallaşma prosesinin mahiyyəti açıqlanmış, elmi mənbələrə əsasən ümumiləşdirmələr aparılmış və problemlə bağlı elmi yanaşmalar irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən mülahizələrdən psixoloqlar, pedaqoqlar, valideynlər, ümumiyyətlə geniş kütlə faydalanaraq sosiallaşma prosesinin uğurla nəticələnməsi baxımından problemin mahiyyətini dərindən dərk edərək praktik fəaliyyətlərində nəzərə almaq imkanına sahib olarlar.

**Ədəbiyyat:**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. -Bakı, 2003. -356 s.
2. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. -Bakı, 2000. -442 s.
3. Əlizadə H., Mahmudova R.M. Sosial pedaqogika. -Bakı, 2013. -368 s.
4. Белинская, Е.П. Социальная психология личности: -М., 2009. -304 s.
5. Şavran G., Ayşın F., Gökalp E. Modern sosyoloji tarihi. -Eskişehir, 2013. -237 s.

**Redaksiyaya daxil olub:** 14.01.2025